Kredo 2020.- 29 oktyabr.- S.16.

# Dünyanın tanınmış qələm adamları ermənilərin Gəncə və Bərdədə törətdikləri terrorla bağlı bəyanat yayıb



ABŞ, Rusiya, Hindistan, Türkiyə, Ukrayna, Gürcüstan, Qazaxıstan, Qırğız Respublikası, Özbəkistan, Türkmənistan, Bolqarıstan, Şimali Makedoniya, Moldova, İslandiya, İspaniya, İraq, Gürcüstan və Azərbaycanın bir qrup tanınmış qələm adamı Ermənistan silahlı qüvvələrinin Gəncə və Bərdədə törətdikləri terrorla bağlı bəyanat yayıb.

AZƏRTAC-a daxil olan bəyanatda deyilir: "Biz, ayrı-ayrı ölkə və ədəbi qurumu, media orqanını təmsil edən yazarlar, bütün dövrlərin böyük şairi Nizami Gəncəvinin doğma yurdu Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən ard-arda atəşə tutulmasından sonra bu dəfə mütəfəkkir şairin sevə-sevə vəsf etdiyi Bərdə şəhərinin qadağan olunmuş "Smerç" kaset raketləri ilə atəşə tutulmasından sarsılmışıq. Biz bununla bağlı öz narahatlığımızı, hiddətimizi bildiririk. Biz, qələm adamları çox narahatıq ki, döyüş bölgəsindən on kilometrlərlə uzaqda yerləşən Gəncə və Bərdənin (eləcə də digər yaşayış məntəqələrinin – Tərtər, Goranboy, Ağcabədi və b.) səbəbsiz yerə ağır silahlardan atəşə tutulması nəticəsində ölənlər, yaralananlar var, xeyli mülki infrastruktur, dinc əhalinin evləri dağılıb. Rəsmi təsdiq olunmuş bilgilərə görə, sentyabrın 27-dən hazırkı vaxtadək dinc yaşayış məntəqələrinin atəşə tutulması nəticəsində 90 mülki şəxs həlak olub, 392 nəfər yaralanıb. Ən dəhşətlisi, ölən və yaralanan azərbaycanlıların bir hissəsi körpə, uşaq, qadın və qocadır...

Artıq heç bir təminat yoxdur ki, atılan mərmilərdən daha biri Nizami Gəncəvinin məqbərəsinə dəyməyəcək, bütün dövrlərin oxunan, öyrənilən mütəfəkkir şairinin ruhunu narahat etməyəcək. Hər günahsız insanın həyatını itirməsi haqq dünyasında olan şairlərin, yazarların ruhunu incidir, yaşayan şairlərin, yazarların həyatına və əsərlərinə çökür... Biz istərdik, gələcək nəsillərə körpələrin, uşaqların, qadın və qocaların günahsız ölümlərinin ağırlığını deyil, beynəlxalq ictimaiyyətin ədalətini ötürək. Dünyanı ədalət xilas edəcək!

Biz, qələm adamları, Ermənistanı mülki əhalini hədəf almaqdan çəkindirmək üçün bütün dünya yazarlarını öz haqq səslərini qaldırmağa çağırırıq. Bu bəyanat qoşulmaq üçün açıqdır.

Əziz şairlər, yazıçılar, publisistlər! Sizə müraciət edirik! Ümidvarıq ki, sizlərin dünyanın dörd yanından ucalan səsiniz, ədalətli mövqeyiniz təcavüzkar üçün çəkindirici faktora çevriləcək.

Biz bu bəyanatımızla BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrin (nəhayət) yerinə yetirilməsinin həyati önəm daşıdığını bildiririk. Əgər dünyanın hər yerindən, dünyanın ən mötəbər təşkilatının qətnamələrinin yerinə yetirilməsi tələb edilsə, bu müsbət presedent yaradardı; qələmin, qələm adamlarının gücü görsənərdi; bəlkə daha kimsə təcavüzkarlığa, günahsız qan axıdılmasına həvəslənməzdi...

Bir daha dünyanın harasında yaşamasından asılı olmayaraq, bütün həmkarlarımızı, böyük söz ustadlarının Vətəni olan Azərbaycanın günahsız körpə, uşaq, qadın və qocaları daxil olmaqla, mülki şəxslərin öldürülməsinə qarşı öz sözü, qələmi, əsəri, kitabı ilə etiraz etməyə çağırırıq!

**Türkiyə:**

İbrahim Yavuz Bildik – şair, keçmiş millət vəkili

Sami Gökmən – keçmiş millət vəkili

Yaqub Öməroğlu – Avrasiya Yazarlar Birliyinin rəhbəri, filologiya elmləri namizədi, dosent

Osman Baş – "Dünya – DER" rəhbəri, şair-publisist, TİKA-nın Bakıdakı keçmiş koordinatoru, ***Dünya Gənc Türk Yazarlar Birliyi*** **(DGTYB)** Məsləhət Şurasının üzvü

Kəramətdin Yılmaz – Ölüdəniz Bələdiyyəsinin keçmiş rəhbəri

Hikmət Ərən –"EkoAvrasiya" jurnalının qurucu-baş redaktoru, araşdırmaçı-yazar, DGTYB Məsləhət Şurasının üzvü

Coşğun Qarabulud – şair, ədəbiyyatşünas, Fəthiyyə Ədəbiyyat Qrupunun (FƏQ) üzvü, DGTYB Məsləhət Şurasının üzvü

Oktay Yivli – şair, professor

Mustafa Doğan – Mersin Şairlər-Yazarlar Dərnəyi rəhbəri

Nurcan Gökmən – şair, FƏQ üzvü

Gülsərən Pars – sənətçi, FƏQ üzvü

Əsər Tuncoğlu – sənətçi, FƏQ üzvü

Afi Can – yazar, FƏQ üzvü,

İlkay Çiğdəm – yazar, FƏQ üzvü

Mahmut Özkoca – şair-yazar, Hatayda çıxan "Zeytun" jurnalının yayın yönətməni

Cəlal Bozqurd – jurnalist, köşə yazarı

Məlahət Özçoban – Göllər bölgəsi Şair-Yazarlar Dərnəyi rəhbəri, DGTYB Məsləhət Şurasının üzvü,

Alptekin Cevherli – "Mələklər Yayıncılığ"ın qurucu-başqanı, araşdırmaçı-yazar, DGTYB Məsləhət Şurasının üzvü

Eren Elmalı – "Yesevi Ocağı" rəhbəri

Yücel Alpay Dəmir – "Türk Ocaqları" Kocaeli şöbəsinin rəhbəri

Süleyman Pekin – "Aydınlar Ocağı" Kocaeli şöbəsinin rəhbəri

Bülənt Maşaoğlu – URAL Dərnəyi rəhbəri

Dərya Akdəmir – yazıçı, "ANKA" Dərnəyi rəhbəri

**Qazaxıstan:**

Muxtar Şaxanov – Qazaxıstanın Xalq şairi, Türk xalqları Aydınları Birliyinin rəhbəri

Akberen Elgezek – şair-publisist, Qazaxıstan Yazıçılar Birliyi (QYB) sədrinin I müavini, DGTYB Məsləhət Şurasının üzvü

Devlətkərəy Kapoğlu – şair, Əməkdar mədəniyyət işçisi, QYB Nur-Sultan filialını rəhbəri, DGTYB Məsləhət Şurasının üzvü

Devletbek Baytursunoğlu – şair-publisist, QYB-nin üzvü, "Alaş" Xalqlararası Ədəbiyyat mükafatı laureatı

Kudiyar Bilal – QYB-nin üzvü, mədəniyyət xadimi, Qazaxıstan

Erkinbek Serikbay – yazıçı, Türk xalqları arasında ədəbi əlaqələri inkişafetdirmə Fondunun rəhbəri, DGTYB-nin üzvü

**Qırğız:**

Nurlan Kalıbekov – şair, Qırğız Respublikası Yazıçılar Birliyinin sədri, Əməkdar mədəniyyət işçisi, DGTYB Məsləhət Şurasının üzvü

Altınbek İsmail – şair-tərcüməçi, DGTYB Xalqlararası koordinatoru

Kaliça Jakup – şair, DGTYB-nin üzvü

**Özbəkistan:**

Babaxan Şərif – tərcüməçi, filologiya elmləri doktoru, professor

Cabbar İşənkul – filologiya elmləri doktoru, ədəbiyyatşünas, professor, DGTYB Məsləhət Şurasının üzvü

Şahina İbrahimova – tərcüməçi, filologiya elmləri namizədi

Qoşqar Norkobil – yazıçı-dramaturq, "İnsan və qanun" qəzetinin baş redaktoru

Xasiyyət Rüstəm – "Kitab Dünyası" qəzetinin baş redaktoru, DGTYB Məsləhət Şurasının üzvü

Fəxriyar Nizam – şair-tərcüməçi, DGTYB Məsləhət Şurasının üzvü

**Türkmənistan:**

Murat Toylu – jurnalist, TRT "Türkmən masası"nın rəhbəri, DGTYB Məsləhət Şurasının üzvü

**ABŞ:**

Ocean Vuonq – şair-publisist, "American Book Award" mükafatı laureatı

Traci Dauqherri – yazıçı, PEN Yazarlar qurumunun üzvü

**Rusiya:**

Svetlana Şilina – şair, biblioqraf

Afaq Şıxlı - şair-tərcüməçi, Rusiya Yazıçılar Birliyinin üzvü

**Ukrayna:**

Tudora Arnaut – şair-publisist, dosent-doktor

Lesya Pimonenko – türkoloq, "Maydan" Tərcümə Bürosunun müdiri

Artem Bulgari – Ukrayna Qaqauzlar Birliyinin sədri

**Bolqarıstan:**

Rafet Uluturk – "BULTÜRK – Bolqarıstan türkləri Mədəniyyət və Xidmət Birliyinin sədri, araşdırmaçı-yazar, DGTYB Məsləhət Şurasının üzvü

Ərdal Karabaş – Bolqarıstan Statejik Araşdırma Mərkəzi rəhbəri

Seniha Rasim Sabri – Avropa Bolqarıstan Türkləri Dərnəyi rəhbəri

**Hindistan:**

Anita Desai, yazıçı, Xalqlararası "The Guardian" Uşaq kitabları mükafatı laureatı

**Şimali Makedoniya:**

Enes İbrahim – Quzey Makedoniya Xalq Məclisinin deputatı, araşdırmaçı-yazar, ictimai-siyasi xadim

Hüsrev Emin – Quzey Makedoniya Türk QHT-ləri Birliyi (MATÜSİTEB) rəhbəri

Leyla Şərif Emin – şair-publisist, "Körpü" kültür-sənət jurnalının baş redaktoru

**Moldova:**

Güllü Qərənfil – şair-publisist, Komrat Dövlət Universitetinin müəllimi

Alla Böyük – şair-publisist, DGTYB üzvü

**İslandiya:**

Sjon Siqurdsson – yazar, tənqidçi, "Quzey ədəbiyyat Ödülü" laureatı

**İspaniya:**

Joan Margarit i Consarnau – şair, Xalqlararası "Servantes" mükafatı laureatı

**İraq:**

Fövzi Əkrəm Tərzioğlu – İraq parlamentinin keçmiş deputatı, İraq Türkman Şair-Yazarlar Birliyinin sədri, DGTYB Məsləhət Şurasının üzvü

Şəmsəddin Kuzəçi – Türk Dünyası Gənc İletişimçilər Birliyi rəhbəri, şair, DGTYB Məsləhət Şurasının üzvü

**Gürcüstan:**

Baqatel Arabuli – Gürcüstan Yazıçılar Birliyinin (GYB) rəhbəri

Eka Kaçaya – "Mpobi" jurnalının baş redaktoru

Allahverdi Təkləli - GYB Azərbaycan bölməsinin rəhbəri

**Azərbaycan:**

Əkbər Qoşalı (Yolçuyev) – şair-publisist, Xalqlararası "Alaş" ədəbi mükafatı laureatı, DGTYB Məsləhət Şurasının rəhbəri".

***2020***